**ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu**
**Seçki Müşahidə Missiyası**
**Azərbaycan Respublikası**
**2008-ci il Prezident Seçkiləri**

OSCE ODIHR

# ARALIQ HESABATI No. 2*
# 18–30 Sentyabr 2008-ci il

## I. ƏSAS MÜDDƏALAR

- 15 Oktyabr 2008-ci il prezident seçkilərinin rəsmi seçki qabağı təşviqat kampaniyası Sentyabrın 17-də başlamışdır. Ümumilikdə təşviqat mühiti dinc və sakit, ictimai marağın isə əsl rəqabətin olmadığını dərk edildiyinə görə məhdud olduğu görünür. Hakimiyyətdə olan Yeni Azərbaycan Partiyası öz namizədi hazırkı Prezident İlham Əliyevin təşviqat kampaniyasını çox fəal aparır. Digər namizədlərin də təşviqat kampaniyası başlasa da hələlik müqayisədə çox zəifdir.

- Prezident rəsmi səlahiyyətləri çərçivəsində ölkə daxilində geniş miqyaslı səfərlər edir. ATƏT/DTİHB SMM-nın Uzun Müddətli Müşahidəçilərin (UMM) verdiyi məlumata görə onun müntəzəm fəaliyyətini təşviqat kampaniyasından ayırmaq çox çətin olur. UMM-in əldə etdiyi məlumata görə, əhali bəzi vaxtı YAP-nın mitinqlərində iştirak etməyə məcbur edilirdilər.

- Bakı Şəhər İcra Hakimiyyəti Sərbəst Toplaşmaq Azadlığı haqqında qanunun əsasnamələrini məhdud şəkildə təmin edərək seçkiləri boykot edən müxalifət partiyalarının Bakının mərkəzində açıq havada mitinq keçirmək üçün yer ayırması ilə bağlı müraciətlərini təmin etməyiblər.

- Mərkəzi Seçki Komissiyası (MSK) seçkilərə hazırlığı çox fəal aparır və tez-tez iclaslar keçirir. Dairə Seçki Komissiyalarında (DSK) və Məntəqə Seçki Komissiyalarında (MnSK) vakant yerlərinin doldurulması prosesi seçki dövrü ərzində davam edib.

- MSK DSK-ları üçün seçki məntəqələrinin səviyyəsinin nəticələrinin yoxlanılması və tabulyasiyası üçün təlimlər hələ də qəbul etməlidirlər. Eyni zamanda MSK seçki günü səs vermə məntəqələrində veb-kameraların istifadə qaydasını nizama salmalıdır. MSK-nın izah etdiyi kimi prosesdə şəffaflığın səviyyəsini artırmaq məqsədilə quraşdırılacaqdır.

- İctimai televiziya və radiosunda mütəmadi olaraq bu günə qədər namizədlər üçün seçicilərə öz ismarıclarını təqdim etmək fürsəti yaradılıb. ATƏT/DTİHB SMM-nın kütləvi informasiya vasitələrinin monitorinqinin ilkin nəticələri bütün monitorinq olunmuş televiziya kanallarının seçki kampaniyasından əvvəl və sonra siyasət və seçkilərlə bağlı xəbərlərinin mühüm bir hissənin hazırkı Prezident və hökumətə ayrıldığını göstərmişdir. İctimai televiziyanın 17 Sentyabr tarixindən etibarən Prezidentin fəaliyyətinin yayımını məhdudlaşdırmaq cəhdinə baxmayaraq, ona ayrılan vaxt digər namizədlərin hamısına birlikdə ayrılan vaxtdan daha çox olmuşdur.

- MSK-nın media işçi qrupu hesabat vaxtı ərzində təşviqatla əlaqəli dörd şikayəti nəzərdən keçirmiş və namizəd İqbal Ağazadəyə öz təşviqat kampaniyasını tez başladığına görə xəbərdarlıq etmişdir.

---

* Hazırki mətnin əsli İnqilis dilində olan nüsxəsi sayılmalıdır.

- Bakı Şəhər Apelyasiya Məhkəmələri və Ali Məhkəmə qeydiyyatda alınmayan namizədlərin şikayətləri əsasında üç məhkəmə iclasları keçirib. Apelyasiya şikayətlərinin üçü də rədd olunmuşdur.

## II. TƏŞVİQAT KAMPANİYASININ MÜHİTİ

28 günlük rəsmi seçkiqabağı təşviqat kampaniyası Sentyabrın 17-də başlamış həmin kampaniya 14 Oktyabr saat 08:00-da yekunlaşmalıdır. Ümumilikdə, təşviqat mühiti dinc və sakitdir, və ictimaiyyətin maraqları əsl rəqabətin olmadığını dərk elədiklərinə görə məhdud olduğu görünür. Beş müxalifət partiyaları Demokratik Qüvvələrin Birgə Frontuna birləşərək bu seçkilərdə yarışmaya qoşulmamaq qərarına gəldilər, qanunvericiliyi təkmilləşdirmək istiqamətində zəruri addımlar atmamış və əsas azadlıqların daha da məhdudlaşdırılmasına əsaslanaraq.

Hakimiyyətdə olan Yeni Azərbaycan Partiyası öz namizədi hazırkı Prezident İlham Əliyevin təşviqat kampaniyasını çox fəal aparır. YAP-nın təşviqat kampaniyası əsasən hazırkı Prezidentin öz vəzifəsində aparılmış fəaliyyətini əsas tutaraq aparılır. Partiya ATƏT/DTİHB SMM-na seçki kampaniyasına bir il hazırlaşdığını bildirib və seçki kampaniyasını seçicilərin istəklərinin təhlili əsasında kampaniyanın mərkəzləşdirilmiş strategiyasını müəyyən etdi. Hesabat hazırlandığı zaman, hazırkı Prezident çox fəal şəkildə ölkənin regionlarına səfərlər edir, yeni fabriklər, yollar, məktəblər, muzeylər, parklar və aeroportun təntənəli açılışlarında iştirak edir, və hərbi hissələrə səfər edir. ATƏT/DTİHB SMM-nın uzun müddətli müşahidəçilərin (UMM) verdiyi məlumata görə hazırkı Prezidentin öz mütəmadi fəaliyyəti və onun kampaniyasını ayırmaq çox çətindir.

Digər namizədlərin də təşviqat kampaniyası başlasa da hələlik müqayisədə çox zəifdir. Bu namizədlərinin təşviqat kampaniyasının əsas forması böyük miqyaslı mitinqlər keçirmək deyil, kiçik miqyaslı tədbirlər və qapı-qapı aqitasiya aparmaqdan ibarətdir. Cənab İqbal Ağazadə (Ümid Partiyası), nisbətən zəif şəkildə cənab Fazil Mustafayev (Böyük Quruluş Partiyası) və cənab Qüdrət Həsənquliyev (Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası) regional ofislərin və heyətin yaradılması və kampaniya ilə birgə kampaniyalarını təşkil edirlər. Lakın cənab Ağazadə özü şəxsən regionlarda keçirilən təşviqat kampaniyasında iştirak etmir, və ATƏT/DTİHB SMM-na iştirak etmək fikri olmadığını bildirib. Bütövlüklə namizədlərin seçki platformalarında və təşviqat kampaniyasının ismarıclarında çox böyük fərq olmadığı görsənir. Çox təbliğ olunanlar iqtisadi və ictimai mühitin yaxşılaşdırılma zərurəti, və Dağlıq Qarabağ konfliktinin həll olunması. Cənab Hafiz Hacıyev müxalifət və bəzi hökumət nümayəndələrinin ünvanına təhrik edici olmuş istehzalı ritorika işlədib.

Əyani olaraq kampaniyada hazırkı prezidentin posterləri üstünlük təşkil edir. Bu cür posterlərin qanunda əks olunduğu kimi sahibkarın razılığı ilə yerləşdirilə bilər, onların əksəriyyəti Bakı və digər yerlərdə mağazaların pəncərələrində yerləşdirilib. Seçki materiallarının yerləşdirilməsi üçün hökumət tərəfindən ayrılmış stendlər geniş şəkildə istifadə olunur, ona baxmayaraq bəzi namizədlərin görünmə dərəcəsi məhduddur. Cənab İqbal Ağazadə onun posterlərinin cırıldığını bildirib lakın ona gəldikdə heç bir rəsmi şikayət etməmişdir. ATƏT/DTİHB SMM-nın UMM-in bildirdiklərinə görə posterlərin cırıldıqları yerlərdə bunu hər hansı bir xüsusi namizədə qarşı yönəltdirildiyi təəssüratı yaratmır.

ATƏT/DTİHB SMM-nın UMM bəzi YAP mitinqlərində çoxlu sayda şagirdlərin və ali məktəblərin tələbələrinin məktəb formasında göründüyü bildirilir. Onlara məktəblərin bağlı olduğu deyilib ona görə də onlar öz müəllimləri ilə birgə mitinqdə iştirak edə bilərlər. Həmçinin UMM-in əldə etdiyi məlumata görə, bəzi vaxtı əhali YAP-nın mitinqlərində iştirak etməyə məcbur edilir. İki halda YAP mitinqlərində iştirak edən şəxslər onların mitinqdə iştirak etmələri öz rəisləri tərəfindən deyildiyini bildiriblər. Həmçinin UMM verdiyi məlumata görə cənab Qulamhuseyn Əlibəylinin keçirdiyi mitinqə vətəndaşlar iştirak etməyi məcbur olunmuşdular.

Bakı Şəhər İcra Hakimiyyəti yeni Sərbəst Toplaşmaq Azadlığı haqqında qanunun əsasnamələrini məhdud tərzdə təmin edib, yəni ki seçkiləri boykot edən müxalifət partiyalarının Sentyabrın 28-də keçirmək istədiyi mitinq barəsində müraciəti təmin etməyib. Müraciət şəhərin mərkəzində açıq havada mitinq keçirmək üçün təklif olunmuş yerlərin ayrılmasını özündə əks etdirirdi. ATƏT/DTİHB SMM-na namizədlərin təşviqat kampaniyasının mitinqlərini keçirə bilmədikləri haqda heç bir məlumat qəbul olunmayıb.

## III. SEÇKİ ADMİNİSTRASİYASI

Dairə Seçki Komissiyalarında (DSK) və Məntəqə Seçki Komissiyalarında (MnSK) vakant yerlərinin doldurulması prosesi seçki dövrü ərzində davam edib. Mərkəzi Seçki Komissiyasının (MSK) üzvləri hər Dairə Seçki Komissiyasında (DSK) iki qalan yerlərin doldurulması haqda razılığa gəliblər, parlamentdə azlıq təşkil edən üzvlərin partiyaların nümayəndələrini kvota əsasında müəyyən olunacaq və müstəqil namizədləri təmsil edən parlament üzvlərindən hər birindən bir nəfər. Lakın MnSK-da öz namizədlərini təyin etmək hüququ olan partiyaların əksəriyyəti hər bir yerlərin bölüşdürülməsi haqda hələ da razılığa gəlmədikləri görünür.

Seçki Komissiyaları tərkibinin düsturu məsələsi məhz müxalifət partiyaları da seçkiləri boykot etmək qərarlarının əsas səbəbi kimi bunu göstərirdilər – ATƏT/DTİHB və Venesiya Komissiyasının partiyalarda inam yaratmaq və komissiyalarda iqtidar-yönlü qüvvələrin dominantlığının qarşısını almaq məqsədilə seçki komissiyaların tərkibinin dəyişdirilməsi ilə bağlı tövsiyələrinə baxmayaraq hələ də mübahisəli olaraq qalmaqdadır.

DSK və MnSK müntəzəm üzvlərinin təyin olunması prosesi ilə birgə, qeydiyyatdan keçmiş namizədlər tərəfindən öz məsləhətçi komissiyalarının üzvlərinin təyin edilməsi prosesi da həmçinin davam edir. Daha iki MSK məsləhətçi üzvləri təyin olunmuşdular. ATƏT/DTİHB SMM UMM-in verdiyi məlumata görə YAP öz məsləhətçi üzvlərini hər bir komissiyaya təyin edib, digər partiyalar isə cəmi bir neçəsini.

Hesabat hazırlanan dövrü ərəfəsində MSK keçiriləcək seçkilərə hazırlığı çox fəal aparmağı davam edir. MSK tez-tez müşahidəçilər və kütləvi informasiya vasitələri üçün həmişə açıq olan görüşlər keçirir. Lakın MSK-nın hələ də DSK-nın məntəqə-səviyyəsinin nəticələrinin yoxlanılma və tabulyasiya işlərinə dair təlimatları, DSK-nın yekun protokolunun tərtib olunma qaydalarından ayrı, hələ də qəbul etməlidir. MSK-nın ATƏT/DTİHB SMM-na bildirdiklərinə görə 2003 il prezident seçkilərinin təlimatları hamin məsələ ilə bağlı hələ də qüvvədə olaraq qalır lakın bu təlimatların DSK-na aid olunub olunmadığı hələ də qaranlıq olaraq qalır.

MSK seçki günündə exit poll keçirmək istəyən təşkilatlar üçün qaydalar qəbul edib. Həmin qaydalar “bu sahədə ixtisaslaşmış, müvafiq təcrübəyə malik olan nüfuzlu hüquqi şəxslər” kimi bir qədər məhdud tələbləri özündə əks etdirir və ərizələri təqdim etmək üçün cəmi bir həftə müddəti ayrılıb. Bu cür müraciəti üç təşkilat təqdim edib, MSK onları 10 gün müddətində yoxlayıb onlar haqda öz qərarlarını qəbul etməlidirlər.

MSK müşahidəçi və kütləvi informasiya vasitələrinin nümayəndələrini Sentyabrın 24-də Parlamentin nəşriyyatında MSK nın üç üzvündən ibarət olan komissiyanın nəzarəti altında seçki bülletenlərinin çap edilməsinin başlanmasına dəvət etmişdir.

MSK sədrinin kütləvi informasiya vasitələrinə bildirdiyinə görə hər bir qeydiyyata alınmış namizəd üçün ayrılmış vəsait ilkin olaraq 12.000 AZN mühüm dərəcədə artırılıbdır və bütün

namizədlərin təşviqat kampaniyası üçün artıq 144.000 AZN çatıb. Seçki Məcəlləsinə[1] uyğun olaraq iki namizədin bu vəsaiti almaq hüququna malik olmadığına görə, və ümumilikdə 28.800 AZN qalan hər bir namizədin seçki ehtiyatına köçürüləcəkdir.

MnSK Sədr və katiblərinin təlimlərinin ikinci mərhələsi öz fəaliyyətindədir. ATƏT/DTİHB SMM UMM təlim iclasları yaxşı təşkil olunmuş və yaxşı davamiyyəti ilə təsvir edilirlər.
MSK-nın ATƏT/DTİHB SMM-na verdiyi məlumata görə prosesdə şəffaflığın səviyyəsini qaldırmaq məqsədilə ölkə boyunca bir neçə səs vermə məntəqələrində veb kameralar quraşdırılacaqdır, bununla ictimaiyyət prosesi izləmək hüququna malik olacaq. ATƏT/DTİHB SMM UMM verdiyi məlumata görə DSK-ların əksəriyyətində veb kameraların yerləşdiriləcək seçki məntəqələri artıq müəyyənləşib və onların bir neçəsində kameralar artıq quraşdırılıb. Eyni zamanda MSK kameraların istifadə qaydalarını müəyyən edib nizama salmalıdır və səs məxfiliyinin qorunması üçün lazımı şərait yaratmalıdırlar.

## IV. SEÇİCİLƏRİN QEYDİYYATI

Seçicilərin qeydiyyatı prosesi hesabatın hazırlanma dövründə də davam edirdi. Seçici siyahılarını ictimaiyyətin diqqətinə çatdırmaq üçün ayırmış on günlük müddətin axırında dəyişikliklər MnSK-rı tərəfindən təsdiq olunaraq və düzəlişlər aidiyyati DSK-na göndərilmişdir. MSK istinadən seçicilərin yekun sayı 4.371.879 çatmışdır may ayının sonunda mütəmadi illik yenilənmədən sonra təxminən 30.000 azalıb. ATƏT/DTİHB SMM UMM-in verdiyi məlumata görə DSK-ları tərəfindən verilmiş qeydiyyatdan çıxma səs vermə vərəqələrinin(QÇSV) sayı orta hesabla 20–30. QÇSV seçicilərə qeydiyyatda olan seçki məntəqəsindən başqa istənilən seçki məntəqəsində səs vermə hüququ verir. DSK tərəfindən verilmiş QÇSV-ri, MnSK-da verilmiş QÇSV-ri kimi həmçinin, MnSK-na qanunda nəzərdə tutulan müddət ərzində çatdırılmışdır.

## V. KÜTLƏVI İNFORMASIYA VASITƏLƏRI

İctimai televiziya və radiosunda mütəmadi olaraq bu günə qədər namizədlər üçün seçicilərə öz ismarıclarını təqdim etmək fürsəti yaradılıb. Hazırkı Prezident, təşviqat kampaniyasında iştirakından çəkinərək, debatlarda özü şəxsən iştirak etməməyə üstünlük verərək özünün səlahiyyətli nümayəndələri tərəfindən təmsil olunur. Bu günə kimi yalnız iki namizəd Cənab İqbal Ağazadə və Cənab Qüdrət Həsənquliyev siyasi reklam üçün yayım vaxtını sifariş etmişdilər, birinci ANS və Xəzər televiziyalarında, axırıncı isə ANS kanalında.

ATƏT/DTİHB SMM əsas elektron və çap media vasitələrinin[2] monitorinqini keçirir. Bu günə kimi monitorinq iki mərhələdə keçirilib, 5–16 Sentyabr (rəsmi təşviqat kampaniyasının başlanmasından əvvəl) və 17–28 Sentyabr (rəsmi təşviqat kampaniyasının başlanmasından sonra). 5–16 Sentyabr müddəti ərzində bütün yoxlanılmış televiziya kanalları öz yayımının böyük hissəsini hökumət nümayəndələri və onların fəaliyyətlərinə həsr etmişdilər. İlham Əliyevin demək olar ki bütün hallarda kütləvi informasiya vasitələrində Prezident qismində olaraq əks olunub, bu ona rəsmi təşviqat kampaniyasının başlanmasından əvvəl üstünlük qazandırıb, onun rəqibləri isə eyni zamanda monitorinq aparılmış televiziya kanallarında çətinliklə hər hansı bir xəbər yayımını qazanmışlar.

---

[1] 2003-cü ildə keçirilmiş prezident seçkilərində namizəd olan lakın səslərin 3 faizindən az toplayan cənab Qüdrat Həsənquliyev və Hafiz Hacıyev, Dövlət büdcəsindən aldıqları pul vəsaitnı qaytara bilməyiblər. Cənab Həsənquliyev şikayət təqdim edib.

[2] ATƏT/DTİHB SMM monitorinqi bütün siyasi və seçkilərlə-əlaqəli proqramları və verlişlərin əsas efir vaxtı ərzində AZTV, İTV, ATV, ANS TV, Lider TV, Space və Xəzər TV və *Azərbaycan*, *Respublika*, *Yeni Müsavat* və *Zerkalo* qəzetlərində də həmçinin siyasi və seçkilərlə baglı məlumatı.

Kütləvi informasiya vasitələrinin rəsmi təşviqat kampaniyasının işıqlandırılması əsasən Prezident, Hökumət, Prezident Administrasiyası və hakimiyyətdə olan YAP-nın fəaliyyətlərinə həsr olunması üstünlük təşkil edir. Hazırkı dövlət administrasiyasının fəaliyyətini müsbət əks etdirmək tendensiyası çox gözə çarpırdı, mənfi fikirlər və onların olduğu haqda qeydlər ümumiyyətlə yox idi. Məsələn ATƏT/DTİHB SMM monitorinqi başlandığından heç bir yoxlanılmış televiziya kanalları İctimai televiziyasından [3] başqa, müxalifətin Demokratik Qüvvələrin Birgə Frontunun seçkilərdə iştirak etməyəcəkləri haqda heç bir məlumat əks olunmayıb.

17–28 sentyabr aralarında İctimai televiziya siyasi və seçkilərlə bağlı xəbərlər yayımının 60 faizini, Prezidentin fəaliyyətinə (21 faizini), Hökumət (18 faiz), Prezident Administrasiyası (2 faiz) və YAP (19 faiz) həsr etmişdir. Bu məlumatların əksəriyyəti müsbət və yaxud bitərəf tərzdə əks olunmuşdu. Müqayisə olaraq qeyd etmək lazımdır ki, Müsavat partiyası isə əsasən bitərəf olan həmən yayımın 3 faizini əldə etmişdir[4]. İctimai televiziyanın sentyabrın 17-dən Prezidentin fəaliyyəti haqda yayımlanan məlumatı məhdudlaşdırmaq cəhdlərinə baxmayaraq, yenə də 26 faiz ona ayrılıb, halbuki digər namizədlərin hamısına bir yerdə cəmi 9 dəqiqə ayrılıb.

İctimai televiziyadan fərqli olaraq AzTV artıq bərabər təşviqat kampaniya şəraitini yaratmaq və bütün namizədlərə pulsuz yayım vaxtının ayrılması kimi qanuni öhdəliklərindən artıq azaddır[5]. O təşviqat kampaniyasının rəsmi başlanmasından qabaq və sonra hökumət haqda geniş və münasib məlumat yayımlayır. Rəsmi təşviqat kampaniyasının başlanmasının ilk üç həftəsində, AzTV siyasi və seçkilərlə bağlı xəbərlər yayımının 96 faizini Prezidentin fəaliyyətinə (73 faiz), Hökumət (8 faiz), Prezident Administrasiyası (4 faiz), və YAP (11 faiz) həsr etmişdir. Bu məlumatlar xüsusi ilə müsbət və yaxud bitərəf tərzdə əks olunmuşdu. Demək olar ki müxalifət partiyaları haqda hələlik heç bir xəbərlər verilməyib və digər namizədlər haqda cüzi bir məlumat verilib. Space, Lider TV, ATV və Xəzər TV kimi özəl kanallar bu məsələyə oxşar tərzdə yanaşırlar. Kütləvi informasiya vasitələrinin Prezidentin, Nazirlərin və YAP-nın üzvlərinin təntənəli tədbirləri (əlavə olaraq II Bölümə baxın Təşviqat Kampaniyasının mühiti), və ya mənzillərin televizorların soyuducuların kompüterlərin maşınların və digər hədiyyələrin hazırkı təşviqat kampaniyası tərəfindən paylanması kimi tədbirlər işıqlandırılır.

Özəl olan ANS televiziyası da həmçinin öz xəbərlər yayımının böyük hissəsini hakimiyyətə və hakimiyyətdə olan partiyaya həsr edir, lakın İctimai televiziyaya oxşar həmçinin də digər prezidentliyə namizədlər haqda bəzi məlumatları yayımlayır. Bütün monitorinq edilmiş televiziya kanalları MSK-nın fəaliyyəti haqda geniş məlumat verirdilər.

Monitorinq edilmiş çap kütləvi informasiya vasitələri televiziyadan fərqli olaraq müxtəlif nöqteyi-nəzərdən məlumat çatdırıblar. Dövlət tərəfindən maliyyələşən Azərbaycan və Respublika qəzetləri hələlik namizədlərə pulsuz yer ayırmaq qanuni öhdəliklərinə sadiq olaraq qalırlar. Lakın bu yerdən kənarda isə onlar hazırkı Prezidentə açıq dəstək olduqlarını göstəriblər. Buna ziddiyyətlə müxalif-yönlü Yeni Müsavat isə Dövlət qurumlarının bir neçə tənqidləri əks etdirməklə İqbal Ağazadənin namizədliyini dəstəkləyir. Digər özəl qəzet Zerkalo hələ ki öz oxuyucularına təşviqat kampaniyası haqda daha obyektiv təsvir təklif edir.

---

3 İctimai televiziya Sentyabrın 5-də müxalixət siyasi partiyaları tərəfindən keçirilmiş press-konfransda birgə bəyanatı imzalayaraq "keçiriləcək seçkilər həqiqi seçki hesab edilə bilməz və onun nəticəsində formalaşan hakimiyyət isə legitim sayıla bilməz" bəyan etmişlər.

4 Yayım vaxtı seçkilərin boykotu kimi daxili siyasət məsələləri ilə əlaqəli ayrılmayıb, lakın Musavt üzvünün xarici siyasət üzrə rəyi, Gürcüstanda baş verə konflikt daxil olmaqla.

5 Seçki Məcəlləsinə İyun ayında qəbul olunmuş düzəlişlər Dövlət televiziyasını öz qanuni öhdəliklərindən azad etdi.

## VI. ŞİKAYƏT VƏ MÜRACİƏTLƏR

Namizəd cənab Həsənquliyev 2003 il prezident seçkilərindən qalan borcuna görə Dövlət büdcəsindən ayrılmış seçki vəsaitini almadığı üçün Bakı şəhər Apelyasiya Məhkəməsinə MSK-na qarşı şikayət ilə çıxış edib, şikayət təmin olunmayıb. Namizədliyi qeydiyyata alınmayan cənab Arif Əliyev, Ali məhkəmədə Bakı şəhər Apelyasiya Məhkəməsinin MSK-nın tələb olunan 40.000 imza[6] toplamadığı üçün qeydiyyata alınmamağı qərarını qüvvədə saxlamaq qərarına qarşı etirazı uğursuz oldu.

Hesabat dövrü ərzində MSK-nın media işçi qrupu təşviqatla əlaqəli dörd şikayəti nəzərdən keçirib – biri YAP digər üçü isə Ümid Partiyası tərəfindən təqdim olunub. YAP İqbal Ağazadənin təşviqat xarakterli CD-lər paylamaqla onun seçki qabağı təşviqat kampaniyasını seçki gününə 28 gün qalmış müddətdən tez başladığını bildiriblər. Ümid Partiyası isə özünü müdafiə edərək Siyasi Partiyalar haqqında qanunda[7] icazə verildiyi kimi həmən CD-lərin artıq 2007-ci ildən yayılmasına başlandığını bildirərək beləliklə onları Partiya haqqında məlumat kimi hesab edilməsini tələb etdilər. Media işçi qrupu müddətdən tez başlanmış təşviqat kampaniyası kimi hesab edərək cənab Ağazadəyə xəbərdarlıq etdilər[8].

Ümid YAP-nın Sentyabrın 17-də keçirilmiş kütləvi informasiya vasitələri tərəfindən geniş şəkildə əhatə olunmuş mitinqdə iki yüksək vəzifəli dövlət məmurlarının iştirakını, MSK-nın Dövlət və İcra Hakimiyyətinin məmurlarının seçki prosesinə müdaxilə etməmək qərarına zidd olduğunu bildiriblər. Media işçi qrupu şikayəti əsassız olduğunu bildirərək qanunda qeyd olunduğu kimi həmin məmurların təşviqat aparmasının şikayətçi tərəfindən heç bir sübutun təqdim olunmadığını iddia edərək şikayəti təmin etməyib[9]. İşçi qrupunun sədri ATƏT/DTİHB SMM-na yüksək vəzifəli məmurlar adi seçicilər kimi həmçinin eyni hüquqlara malik olduqlarını bildirərək birbaşa namizədə səs verməк çağırışını etmədikləri təqdirdə onlar da təşviqat kampaniyaların mitinqlərində və görüşlərində iştirak etmək hüququna malik olmadırlar.

İşçi qrupunun sədri tərəfindən hər dörd halda bütün işçi qrupunun müzakirələri və tam işçi qrupunun iştirakı ilə səs vermənin əsasında formal rəy təqdim olunmuşdur. MSK-nın heç bir qərarı qəbul olunmayıb. Bunun Seçki Məcəlləsində zidd olunduğu hesab olunur. Orada tələb olunur ki, rəsmi şikayətləri qəbul etmiş qurumun üç gün ərzində qərar verməlidir. MSK ATƏT/DTİHB SMM-na izah etdiyinə görə media işçi qrupunun maraqlı tərəflərlə razılaşmaya gəldikdə MSK tərəfindən heç bir rəsmi qarar və yaxud sanksiya verilməsi tələb olunmur.

## VII. YERLİ VƏ BEYNƏLXALQ MÜŞAHİDƏÇİLƏR

MSK-nın 26 Sentyabr tarixinə qədər verdiyi məlumata əsasən 25,023 müşahidəçi akkreditasiya olunub, onların aralarında 15,087 siyasi partiyalar tərəfindən təyin olunub, 7,626 QHT tərəfindən təyin olunub və 2,310 müstəqil. Beləliklə DSK və MnSK tərəfindən ərizələrin qəbul olunmadığı haqda məlumat qeydə alınmayıb.

---

6 ATƏT/DTİHB Seçki Müşahidə Missiyasının Aralıq Hesabat 1 bax. Əlavə olaraq Bakı şəhər Apelyasiya Məhkəməsi cənab Yashar Akhmadovun MSK-na qarşı onun boş dəstək imza vərəqələrini təqdim etdiyinə görə onu namizəd kimi qeydə alınmaması haqqda şikayəti təmin olunmayıb.

7 Siyasi Partiyalar haqqında qanun 12-ci Maddəsinə əsaslanaraq "siyasi partiyalar öz məqsədləri və fəaliyyəti haqqda məlumatı sərbəst yaymalıdırlar"

8 MSK üzvünün bildirdiyinə görə verilmiş xəbərdarlıq heç bir hüquqi qüvvəyə malik deyil.

9 Seçki Məcəlləsinin 1.1.13 Məcəlləsinə əsasən "seçki qabağı təşviqat kampaniya fəaliyyəti vətəndaş və siyasi partiyaların seçiciləri seçkilərdə iştirak etməyə çağırmaq və yaxud çağırmağa cəhd etməklə, hər hansı bir namizədə səs verib verməmək kimi çağırışlar dan ibarətdir".

19 sentyabr tarixində Ali Məhkəmədə keçirilmiş məhkəmə iclasında Seçki Monitorinq Mərkəzi (SMM) təşkilatın yenidən qeydiyyata alınma müraciətinə Vəkillər Kollegiyası tərəfindən akkreditasiya olunmuş vəkilin məhkəmə iclasında iştirak etmədiyinə görə şikayətə baxılmayıb. Eyni zamanda Seçki Monitorinq Mərkəzi qeydiyyat haqqında yeni müraciət təqdim etmişdir: 10 Oktyabr tarixində Ədliyyə Nazirliyi tərəfindən təqdim olunmuş müraciətə qərar gözlənilir.

## VIII. ATƏT/DTİHB SMM-nın FƏALİYYƏTLƏRİ

Hesabat dövrü ərəfəsində ATƏT/DTİHB SMM, dövlət məmurları, namizədlər, partiya və namizədlərin nümayəndələri, seçki administrasiyası, məhkəmə məmurları kütləvi informasiya vasitələri və mülki ictimaiyyət nümayəndələri, və diplomatik missiyalarla görüşlər keçirərək öz mütəmadi fəaliyyətini davam etdirmişdir. Ölkənin bir çox yerlərinə səfərbər edilmiş UMM seçkiyə hazırlıq və təşviqat kampaniyasının regionlarda müşahidə etməyi davam edirlər və qısa-müddətli müşahidəçilərin səfərbər olunmasına hazırlaşırlar. Azərbaycanda akkreditasiya olunmuş diplomatik ictimaiyyət və beynəlxalq təşkilatlar üçün brifinq sentyabrın 18-də keçirilmişdir, ikincisi Oktyabrın 2 də keçiriləcək. ATƏT/DTİHB SMM gözlənilən təxminən 360 qısa müddətli müşahidəçilərin seçki gününü müşahidə etmək məqsədilə gəlişindən sonra daha da güclənəcəkdir.